**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 053/373

**Bakı şəhəri** "30" avqust **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Bolqarıstan Respublikasının Sliven (Sliven), Loveç (Lovec), Pernik (Pernik), Vidin (Vidin), Vratsa (Vratsa), Sofiya (Sofia), Blaqoyevqrad (Blagoevgrad) vilayətlərində, Bosniya və Herseqovina Respublikasının Neum (Neum) əyalətində, Belçika Krallığının Antverp (Antwerp), Lüksemburq (Luxembourg) əyalətlərində, Portuqaliya Respublikasının Beja (Beja), Evora (Evora), Santaren (Santarem), Setubal (Setubal), Lisaabon-Vale do Teju (Lisboa e Vale do Tejo), Kaştelu-Branku (Castelo Branco) regionlarında **blutanq**, Namibiya Respublikasının Zambezi (Zambezi) regionunda, Çin Xalq Respublikasının Çinhay (Qinghai) əyalətində, Fələstin Dövlətinin Qəzza (Gaza) əyalətində, Malayziyanın Perlis (Perlis), Perak (Perak), Saravak (Sarawak), Kedah (Kedah) ştatlarında, İndoneziya Respublikasının Açeh (Aceh), Cava-Timur (Jawa-Timur), həmçinin ölkə ərazisinin digər əyalətlərində, Tunis Respublikasının Qafsa (Gafsa), Cendouba (Jendouba) vilayətlərində **dabaq**, Rumıniyanın Curcu (Giurgiu) inzibati ərazi vahidində **keçilərin artrit-ensefaliti**, İsrail Dövlətinin Şimal (HaZafon) dairəsində **xırdabuynuzlu heyvanların taun**, Rusiya Federasiyasının Samara (Samara), Nijeqorod (Nizhegorod), İrkutsk (Irkutsk) vilayətlərində **Nyukasl**, Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad (Ar Riyad) inzibati ərazi dairəsində, Finlandiya Respublikasının Cənubi Finlandiya (Etelä-Suomen) əyalətində, İrlandiya Respublikasının Kavan (Cavan) inzibati ərazi vahidində, Şimali İrlandiyanın Orta-Olster (Mid Ulster), Orta-Şərq Antrim (Mid and East Antrim), Armah-Banbridc və Kraiqavon (Armagh-Banbridge and Craigavon) dairələrində, Rumıniyanın Braşov (Braşov) inzibati ərazi vahidində, Çili Respublikasının Maule (Maule), Valparaiso (Valparaíso), Bio-Bio (Bío-Bío) regionlarında, Rusiya Federasiyasının Yaroslav (Yaroslavl) vilayətində və Mari-El (Mariy-El) Respublikasında isə qeydə alınmış **yüksək patogen quş qripi** xəstəlikləri aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış xəstəliklər üzrə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, sözügedən xəstəliklərin baş verməsinə görə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.2. Blutanq xəstəliyi üzrə:**

1.2.1. 2020-ci il 12 oktyabr tarixli 66 nömrəli qərarla Bolqarıstan Respublikasının Sliven vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.2. 2020-ci il 20 oktyabr tarixli 69 nömrəli qərarla Bolqarıstan Respublikasının Loveç vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.3. 2020-ci il 2 noyabr tarixli 71 nömrəli qərarla Bosniya və Herseqovina Respublikasının Neum əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.4. 2020-ci il 13 noyabr tarixli 75 nömrəli qərarla Bolqarıstan Respublikasının Pernik, Vidin, Vratsa vilayətlərinə tətbiq edilmiş məhdudiyyət;

1.2.5. 2020-ci il 17 noyabr tarixli 77 nömrəli qərarla Bolqarıstan Respublikasının Sofiya vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.6. 2021-ci il 5 yanvar tarixli 001/96 nömrəli qərarla Bolqarıstan Respublikasının Blaqoyevqrad vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.7. 2021-ci il 27 yanvar tarixli 009/104 nömrəli qərarla Belçika Krallığının Antverp əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.8. 2021-ci il 7 fevral tarixli 011/106 nömrəli qərarla Belçika Krallığının Lüksemburq əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.2.9. 2021-ci il 14 dekabr tarixli 075/170 nömrəli qərarla Portuqaliya Respublikasının Beja, Evora, Santaren, Setubal, Lisaabon-Vale do Teju, Kaştelu-Branku regionlarına tətbiq edilmiş məhdudiyyət.

**1.3. Dabaq xəstəliyi üzrə:**

1.3.1. 2021-ci il 26 oktyabr tarixli 062/157 nömrəli qərarla Namibiya Respublikasının Zambezi regionuna tətbiq edilmiş məhdudiyyət;

1.3.2. 2021-ci il 15 noyabr tarixli 067/162 nömrəli qərarla Çin Xalq Respublikasının Çinhay əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.3.3. 2021-ci il 24 dekabr tarixli 077/172 nömrəli qərarla Fələstin Dövlətinin Qəzza əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.3.4. 2022-ci il 5 may tarixli 031/206 nömrəli qərarla Malayziyanın Perlis, Perak, Saravak, Kedah ştatlarına tətbiq edilmiş məhdudiyyət;

1.3.5. 2022-ci il 16 may tarixli 032/207 nömrəli qərarla İndoneziya Respublikasının Açeh, Cava-Timur əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

1.3.6. 2022-ci il 29 iyun tarixli 041/216 nömrəli qərarla İndoneziya Respublikasına tətbiq edilmiş məhdudiyyət;

1.3.7. 2023-cü il 30 may tarixli 022/273 nömrəli qərarla Tunis Respublikasının Qafsa əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.3.8. 2023-cü il 20 iyun tarixli 028/279 nömrəli qərarla Tunis Respublikasının Cendouba əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**1.4. Keçilərin artrit-ensefaliti xəstəliyi üzrə:**

1.4.1. 2021-ci il 24 may tarixli 031/126 nömrəli qərarla Rumıniyanın Curcu inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**1.5. Xırdabuynuzlu heyvanların taun xəstəliyi üzrə:**

1.5.1. 2021-ci il 31 avqust tarixli 048/143 nömrəli qərarla İsrail Dövlətinin Şimal dairəsinə tətbiq edilmiş məhdudiyyət.

**1.6. Nyukasl xəstəliyi üzrə:**

1.6.1. 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Rusiya Federasiyasının Samara vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.6.2. 2023-cü il 6 iyun tarixli 024/275 nömrəli qərarla Rusiya Federasiyasının Nijeqorod vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.6.3. 2023-cü il 9 iyun tarixli 026/277 nömrəli qərarla Rusiya Federasiyasının İrkutsk vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.7. Yüksək patogen quş qripi xəstəliyi üzrə:**

1.7.1. 2020-ci il 5 fevral tarixli 28 nömrəli qərarla Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad inzibati ərazi dairəsinə tətbiq edilmiş məhdudiyyət;

1.7.2. 2021-ci il 17 fevral tarixli 015/110 nömrəli qərarla Finlandiya Respublikasının Cənubi Finlandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət;

1.7.3. 2021-ci il 14 dekabr tarixli 075/170 nömrəli qərarla İrlandiya Respublikasının Kavan inzibati ərazi vahidinə və Şimali İrlandiyanın Orta-Olster, Orta-Şərq Antrim dairələrinə tətbiq edilmiş məhdudiyyət;

1.7.4. 2021-ci il 24 dekabr tarixli 077/172 nömrəli qərarla Şimali İrlandiyanın Armah-Banbridc və Kraiqavan dairəsinə tətbiq edilmiş məhdudiyyət;

1.7.5. 2023-cü il 6 fevral tarixli 005/256 nömrəli qərarla Rumıniyanın Braşov inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

1.7.6. 2023-cü il 10 aprel tarixli 015/266 nömrəli qərarla Çili Respublikasının Maule, Valparaiso, Bio-Bio regionlarına tətbiq edilmiş məhdudiyyət;

1.7.7. 2023-cü il 30 may tarixli 022/273 nömrəli qərarla Rusiya Federasiyasının Yaroslav vilayətinə tətbiq edilmiş məhdudiyyət;

1.7.8. 2023-cü il 20 iyun tarixli 028/279 nömrəli qərarla Rusiya Federasiyasının Mari-El Respublikasına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer